**Bədən tərbiyəsi və idmanla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 147 nömrəli Fərmanının 1.4, 1.5, 1.6, 1.7, 1.8, 1.9, 1.10, 1.11, 1.14 və 1.15-ci bəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İctimai birliklərə respublika idman federasiyası statusunun verilməsi üçün onların dövlət akkreditasiyası Qaydası", "Hüquqi şəxs statusu olmayan idman klubu haqqında Nümunəvi Əsasnamə", "Hərbi-tətbiqi və xidməti — tətbiqi idman növlərinin Siyahısı", "Milli yığma komandaların maddi-texniki, elmi-metodiki, tibbi-bioloji, tibbi və antidopinq təminatı Qaydası", "Ölkə ərazisində yayılan idman növlərinin və idman fənlərinin tanınması Qaydaları", "Respublika idman federasiyalarının dövlət reyestrinin aparılması Qaydaları", "İdman növlərinin dövlət reyestrinin aparılması Qaydaları", "Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində idman adları, idman dərəcələri, məşqçilərin təsnifat kateqoriyaları və idman hakimlərinin təsnifat dərəcələri", "Dövlət bədən tərbiyəsi-idman təşkilatlarında bədən tərbiyəsi və idman xidmətləri güzəştli şərtlərlə göstərilən bəzi kateqoriyadan olan şəxslərin Siyahısı", "Dövlət bədən tərbiyəsi-idman təşkilatlarında göstərilən bədən tərbiyəsi və idman xidmətlərinə güzəştlərin siyahısı və onların həcmi" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 24 dekabr 2009-cu il
№ 198

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**İctimai birliklərə respublika idman federasiyası statusunun verilməsi üçün onların dövlət akkreditasiyası**

## Q A Y D A S I

## 1. ÜMUMİ MÜDDƏA

Bu Qayda "Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 147 nömrəli

Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və ölkə ərazisində fəaliyyət göstərən *ölkə* səviyyəli bədən tərbiyəsi — idman ictimai birliklərinə ayrı-ayrı idman növləri üzrə respublika idman federasiyası (assosiasiyası) statusunun verilməsi üçün onların dövlət akkreditasiyası qaydasını müəyyən edir.[1]

## 2. AKKREDİTASİYA QAYDASI

2.1. İctimai birliklər Azərbaycan Milli Olimpiya Komitəsinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi (bundan sonra — Nazirlik) tərəfindən dövlət akkreditasiyasından keçdikdən sonra respublika idman federasiyası statusunu alır.

2.2. Təqdim edilmiş sənədlərə 40 (qırx) gün ərzində baxılaraq Nazirliyin rəyi müsbət olduqda, müraciət edənə akkreditasiya barədə qərarın təsdiq edilmiş surəti, əks halda, imtina (qanunvericiliyin həmin imtinaya səbəb olmuş müddəaları göstərilməklə və izah edilməklə) barədə yazılı məlumat verilir.

2.3. Dövlət akkreditasiyası barədə Nazirliyin kollegiyasında vəsatətin qaldırılması, akkreditasiya olunmuş respublika idman federasiyalarının (assosiasiyalarının) fəaliyyətinə nəzarətin təşkili və həyata keçirilməsi, akkreditasiya tələblərinə əlavələr və dəyişikliklər haqqında onlara vaxtında rəsmi xəbərdarlığın edilməsi, akkreditasiya ilə bağlı apelyasiyalara və digər məsələlərə baxılması, bu barədə müvafiq qərarların qəbul edilməsi məqsədi ilə Nazirlik tərəfindən akkreditasiyanı həyata keçirən «xüsusi komissiya» yaradılır və onun tərkibi təsdiq edilir.

2.4. Akkreditasiyadan keçmiş, eləcə də müəyyən səbəblərə görə fəaliyyəti dayandırılmış və ya ləğv edilmiş respublika idman federasiyaları (assosiasiyaları) haqqında məlumatlar Nazirlik tərəfindən respublika idman federasiyalarının (assosiasiyalarının) dövlət reyestrinə daxil edilir, bu barədə məlumat Nazirliyin və Milli Olimpiya Komitəsinin informasiya bülletenlərində dərc olunur.

## 3. AKKREDİTASİYA ÜZRƏ TƏLƏB OLUNAN SƏNƏDLƏR

3.1. Akkreditasiya olunmaq üçün ictimai birlik tərəfindən Nazirliyə aşağıdakı sənədlər təqdim edilməlidir:

rəsmi müraciət (ərizə);

bədən tərbiyəsi və idman yönümlü ictimai birliyin təsis sənədlərinin və hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin notariat qaydasında təsdiq olunmuş surətləri;

Milli Olimpiya Komitəsinin rəyi;

inkişaf etdirilən idman növləri və fənlərinin siyahısı;

müvafiq idman növü üzrə yarışların müəyyən edilmiş qaydada təsdiq edilmiş keçirilmə qaydaları və həmin idman növünün inkişaf və təbliğ edilməsi barədə proqram layihəsi;

müvafiq idman növü üzrə yüksək səviyyəli idmançıların hazırlığı sisteminin təkmilləşdirilməsi haqqında təkliflər;

idman obyektləri və bazaları haqqında məlumatlar;

milli yığma komandalara namizədlərin seçilməsi və komandaların komplektləşdirilməsinə dair təkliflər;

ictimai birliyin fəaliyyətinin təmin edilməsi üzrə maliyyə mənbələri haqqında rəsmi sənədlər.

beynəlxalq və digər idman qurumlarına üzvlüyü haqqında məlumat;

rəhbərliyi və rəhbər orqanlarının tərkibi haqqında məlumat.[2]

3.2. Akkreditasiya ilə bağlı sənədlər Nazirlik tərəfindən siyahı üzrə qəbul olunur.

## 4. AKKREDİTASİYA BARƏDƏ QƏRAR

4.1. İctimai birlik dövlət akkreditasiyasından keçdikdə, ona Nazirliyin kollegiyası tərəfindən qəbul edilmiş akkreditasiya barədə qərarın təsdiq edilmiş surəti təqdim edilir.

4.2. Nazirlik respublika idman federasiyasının fəaliyyətini dayandırmaq və ya ləğv etmək hüququna malikdir.

4.3. Aşağıdakı hallarda dövlət akkreditasiyası haqqında qərar dayandırılır və ya aşkar edilən nöqsanların ciddiliyindən asılı olaraq ləğv edilir:

dövlət akkreditasiyasından keçmək üçün təqdim edilmiş sənədlərdə qeyri-dürüst, həqiqətə uyğun olmayan və səhv faktlar (məlumatlar) aşkar edildikdə;

respublika idman federasiyasının sənədlərində və ya fəaliyyətində əsaslı dəyişikliklər baş verdiyi halda, bu barədə Nazirliyin xüsusi komissiyasına 1 (bir) ay müddətində məlumat verilmədikdə;

respublika idman federasiyasının (assosiasiyasının) fəaliyyətində onlar üçün müəyyən edilmiş tələblərin pozulması hallarına yol verildikdə.

Bu tələblər aşağıdakılardan ibarətdir:

"Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydalara tam riayət olunması;

Nazirlik tərəfindən təsdiq edilmiş respublika Vahid idman təsnifatına və digər normativ sənədlərə riayət olunması;

müvafiq idman növünün idmanın inkişafı üzrə dövlət proqramına uyğun və sistemli inkişaf etdirilməsi;

idman fəaliyyətində beynəlxalq norma və qaydalara əməl olunması;

yarışlar keçirilən idman obyektlərinin idman növünün qaydalarına və tələblərinə uyğun olması, sanitar-gigiyenik, mühəndis-texniki, təhlükəsizlik və digər normalara cavab verməsi;

Nazirliyin bütün sorğularına vaxtında, düzgün və ətraflı məlumatların təqdim olunması.

## 5. YEKUN MÜDDƏALAR

5.1. Respublika idman federasiyasının fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi barədə qərarda respublika idman federasiyasının fəaliyyətinin hansı səbəblərə görə dayandırılması və ya ləğv edilməsi və dayandırılması səbəblərinin aradan götürülməsi üçün 3 (üç) aydan çox olmayaraq müddət göstərilməlidir.

Respublika idman federasiyasının (assosiasiyasının) fəaliyyətindəki qeyri-qanuni halların və digər pozuntuların aradan götürülməsi təmin edilmədikdə, onun fəaliyyəti Nazirliyin qərarı ilə ləğv edilir.

5.2. Akkreditasiya olunmuş respublika idman federasiyası (assosiasiyası) ləğv edildikdə və ya yenidən təşkil olunduqda, onun fəaliyyəti bitmiş hesab olunur.

Qəbul olunmuş qərarlar barədə respublika idman federasiyası (assosiasiyası) 3 (üç) gün ərzində məlumatlandırılmalıdır.

5.3. Akkreditasiya tələblərinə riayət edilməsinə nəzarət Nazirlik tərəfindən həyata keçirilir.

5.4. Nazirliyin fəaliyyətindən və qərarlarından qanunvericiliyə uyğun qaydada yuxarı inzibati orqana və ya məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Hüquqi şəxs statusu olmayan idman klubu haqqında

## NÜMUNƏVİ ƏSASNAMƏ

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Hüquqi şəxs statusu olmayan idman klubu (bundan sonra — klub) haqqında Nümunəvi Əsasnamə "Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 147 nömrəli Fərmanının 1.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

1.2. Klubun Əsasnaməsi onun fəaliyyət göstərdiyi sahənin xüsusiyyətlərinə uyğun olaraq təsisçi tərəfindən hazırlanır və təsdiq edilir.

1.3. Klubun fəaliyyəti məşğul olanların həyat və sağlamlıqlarının qorunması, fiziki hazırlıqlarının inkişafı və təkmilləşdirilməsi, idmanın ayrı-ayrı növləri üzrə idman ustalıqlarının artırılması, mənəvi, əxlaqi və mübariz keyfiyyətlərə yiyələnməsi prinsipləri əsasında qurulur.

1.4. Klub:

fəaliyyətini demokratiya prinsipləri əsasında həyata keçirir;

fəaliyyətinin yekunları haqqında kollektiv qarşısında hesabat verir;

simvollarına, embleminə və atributlarına malikdir;

fəaliyyət göstərdiyi ərazi üzrə müvafiq şəhər (rayon) gənclər və idman baş idarəsində (idarəsində) qeydə alınır.

### 2. KLUBUN MƏQSƏDİ

Klubun əsas məqsədi fəaliyyət göstərdiyi sahədə bədən tərbiyəsi və idmanın inkişafının təmin edilməsi, üzvlərinin maraqları əsasında onların asudə vaxtlarının səmərəli təşkil edilməsi, sağlamlıqlarının qorunması, fiziki inkişaflarına nail olunması, Vətənin müdafiəsinə daim hazır və yüksək əmək qabiliyyətli olması və respublikanın milli yığma komandalarının ehtiyat qüvvələrinin hazırlanmasında fəal iştirakın təmin edilməsidir.

### 3. KLUBUN FUNKSİYALARI, VƏZİFƏLƏRİ VƏ HÜQUQLARI

3.1. Klubun funksiyaları aşağıdakılardır:

aidiyyəti sahə üzrə təhsil alanların, üzvlərinin bədən tərbiyəsi və idmanla, idman turizmi ilə məşğul olmalarını təşkil edir;

əhaliyə kütləvi bədən tərbiyəsi-sağlamlıq və müxtəlif idman xidmətləri göstərir;

sağlamlıq qruplarında və idman bölmələrində təlim-məşq prosesinin aparılmasına nəzarət edir, yığma komandaları formalaşdırır, onların hazırlığını və yarışlarda iştiraklarını təmin edir;

Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyətlər göstərir.

3.2. Klubun vəzifələri aşağıdakılardır:

üzvlərinin sağlamlığını bədən tərbiyəsi və idman vasitəsilə möhkəmləndirmək;

bədən tərbiyəsi və idmanı sağlam həyat tərzi kimi üzvlərinin və onların ailə üzvlərinin gündəlik həyatına daxil etmək;

üzvlərinin idmanın ayrı-ayrı növlərində yarışlarda iştirakını və uğurlar qazanmasını təmin etmək;

klubun idman bölmələrində məşğul olanların respublika Vahid idman təsnifatının tələblərinə uyğun olaraq idman dərəcələri üzrə normativlərin yerinə yetirilməsi istiqamətində iş aparmaq;

öz fəaliyyətində elmi-metodiki tövsiyələrdən və qabaqcıl iş təcrübəsindən istifadə etmək, seminar-məşğələlər, baxış — müsabiqələr və digər belə tədbirlər təşkil etmək;

məşğul olduğu idman növləri üzrə fəaliyyət göstərən respublika idman federasiyaları (assosiasiyaları) ilə əlaqə saxlamaq, beynəlxalq idman əlaqələrini təşkil etmək;

maddi-texniki bazanın yaradılmasını və daimi inkişafını, maliyyə təminatını və onun ildən-ilə artırılmasını təmin etmək.

3.3. Klub aşağıdakı hüquqlara malikdir:

klubun maddi-texniki imkanlarından səmərəli istifadəni təmin etməklə, klubun üzvləri üçün idman ləvazimatı və avadanlığı almaq;

sərəncamına verilmiş əmlakdan (inzibati bina və ya otaqlar, idman qurğuları, texniki vəsait, idman avadanlığı, ləvazimatı və s.) təmənnasız olaraq klubun tələbatına uyğun istifadə etmək;

yüksək nailiyyətlər qazanmış və nəticələrə nail olmuş klub üzvlərini və idmançılarını təltif etmək və daha yüksək səviyyədə mükafatlandırmaya təqdim etmək;

klub üçün icarəyə götürülmüş idman obyektlərindən səmərəli istifadə etmək;

klubun maddi-texniki bazasını və maliyyə təminatını möhkəmləndirmək məqsədi ilə kommersiya fəaliyyəti göstərmək;

əhaliyə pullu bədən tərbiyəsi-sağlamlıq və idman xidmətləri göstərmək;

klubun iş planına uyğun olaraq bədən tərbiyəsi-sağlamlıq tədbirləri, idman yarışları, kompleks spartakiadaları keçirmək;

üzvlərini müxtəlif idman tədbirləri ilə bağlı ayrı-ayrı şəhərlərə və ölkələrə ezam etmək;

öz yığma komandaları üçün təlim-məşq toplanışları keçirmək, onların sahə, şəhər (rayon), respublika və beynəlxalq yarışlarda iştirakını təmin etmək;

respublika Vahid idman təsnifatına əsasən klubun idmançılarına idman dərəcələri vermək və daha yüksək dərəcələrin verilməsinə təqdim etmək;

öz emblemini, simvol və atributlarını reklam etmək.

## 4. KLUBUN ÜZVLƏRİ, ONLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

4.1. Klubun Əsasnaməsini qəbul edən, təsisçinin qərarlarını yerinə yetirən, klubun mənsub olduğu təşkilatda təhsil alan, işləyən hər bir şəxs və onların ailə üzvləri, ölkə ərazisində yaşayan Azərbaycan vətəndaşları və əcnəbilər klubun üzvü ola bilərlər.

4.2. Klubun üzvlüyünə qəbul üzv olmaq istəyənin şəxsi ərizəsi əsasında klubun idarə heyəti tərəfindən həyata keçirilir.

4.3. Klubun üzvləri aşağıdakı hüquqlara malikdirlər:

klubun rəhbər orqanlarını seçmək və seçilmək;

klubun bölmələrində, qruplarında bədən tərbiyəsi-sağlamlıq, idman və idman turizmi ilə məşğul olmaq;

klubun komandalarının heyətinə daxil olmaq, təlim-məşq toplantılarında hazırlıq keçmək və klubun iştirak etdiyi şəhər (rayon), respublika və beynəlxalq yarışlarda klubun idman şərəfini qorumaq;

klubun keçirdiyi, eləcə də klub tərəfindən göndərilmiş xüsusi seminarlarda, kurslarda, toplantılarda təlim keçmək;

klubun sərəncamında olan idman qurğularından və avadanlıqlarından istifadə etmək;

klubun döş nişanını, emblemini, idman geyimini və digər fərqləndirici atributlarını daşımaq;

yığıncaqlarda (konfranslarda), mətbuatda və digər toplantılarda klubun fəaliyyəti haqqında öz fikirlərini söyləmək, tənqid etmək, təklif vermək, qəbul olunan qərarlara münasibət bildirmək.

4.4. Klubun üzvlərinin vəzifələri aşağıdakılardan ibarətdir:

klubun işində fəal iştirak etmək, rəhbər orqanların qərarlarını yerinə yetirmək;

Vətənin müdafiəsinə hazır və yüksək əmək qabiliyyətinə malik olmaq üçün klubun imkanlarından səmərəli istifadə etmək;

sistematik olaraq tibbi müayinələrdən keçmək, həkim nəzarətinin tələblərinə və şəxsi gigiyenaya riayət etmək;

klubun əmlakını qorumaq, onlardan qənaətlə və səmərəli istifadə etmək.

## 5. KLUBUN MALİYYƏLƏŞDİRİLMƏSİ

5.1. Klubun maliyyə fəaliyyəti təsdiq edilmiş xərclər smetasına uyğun olaraq həyata keçirilir.

5.2. Klubun əsas maliyyə mənbələri aşağıdakılardır:

təsisçi tərəfindən bədən tərbiyəsi-sağlamlıq və idman işlərinin təşkilinə ayrılan vəsait;

klubun təsisçisi olan hüquqi şəxsin Həmkarlar İttifaqı Komitəsindən bu sahəyə ayrılan vəsait;

sponsorlardan, hami təşkilatlardan daxil olan vəsaitlər, həmçinin digər fiziki və hüquqi şəxslərin könüllü ianələri;

yerli özünüidarəetmə orqanlarından müvafiq ərazi üzrə bədən tərbiyəsi və idmanın inkişafına dair dövlət proqramlarının icrası ilə bağlı ayrılan vəsaitlər;

qanunvericiliklə qadağan edilməyən digər fəaliyyət növlərindən əldə olunmuş vəsaitlər.

5.3. Klub təsisçi ilə razılaşdırmaqla, klubun ştat cədvəlini və işçilərin aylıq əməkhaqlarının məbləğini müəyyən edir.

5.4. Klubun maliyyə fəaliyyətinə nəzarət klubun təftiş komissiyası və təsisçi tərəfindən həyata keçirilir.

## 6. KLUBUN İDARƏETMƏ ORQANLARI

6.1. Klub Əsasnaməsinə uyğun olaraq təşkilati strukturunu təsdiq edir, idarə heyətini, təftiş komissiyasını seçir, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı tədbirlər planını hazırlayır, idarə heyətinin və təftiş komissiyasının hesabatlarını dinləyir və qərarlar qəbul edir.

6.2. Klubun fəaliyyətinə rəhbərlik klubun idarə heyəti tərəfindən həyata keçirilir.

6.3. İdarə heyəti klubun Əsasnaməsi ilə müəyyən edilmiş müddətə seçilir. İdarə heyəti sədri, sədrin müavinini, xəzinədarı və katibi seçir, heyət üzvləri arasında vəzifə bölgüsünü aparır. İdarə heyəti klubun iş planını təsdiq edir, onun icrasını təmin edir, Əsasnamə ilə müəyyən edilmiş müddət üçün klubun fəaliyyəti barədə hesabat verir.

İdarə heyəti klubun nəzdində ayrı-ayrı komissiyalar və işçi qrupları yaradır, onların fəaliyyətinə rəhbərliyi və nəzarəti həyata keçirir.

İdarə heyətinin iclasları ayda 1 (bir) dəfədən az olmamaqla keçirilir. İclas heyət üzvlərinin 50%-dən çoxunun iştirakı zamanı səlahiyyətli sayılır.

Klubun idarə heyətinin sədri həm də klubun sədri olaraq, idarə heyətinin fəaliyyətinə rəhbərlik edir, klubun adından çıxış edir, dövlət, ictimai, qeyri-hökumət, özəl və digər təşkilatlarda, eləcə də beynəlxalq qurumlarda klubu təmsil edir, müqavilələr bağlayır. Klubun sədri klubun idarə heyəti üçün Əsasnamə ilə müəyyən edilmiş müddətə seçilir.

6.4. Klubun sədri:

klubun fəaliyyətinə, eləcə də maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir və bunun üçün məsuliyyət daşıyır;

klubun işçilərinin funksional vəzifələrini müəyyənləşdirir və təsdiq edir, əmək qanunvericiliyi əsasında onları işə qəbul və işdən azad edir;

səlahiyyətləri çərçivəsində əmrlər və təlimatlar verir;

klubun daxili iş rejimini və qaydalarını müəyyənləşdirir və təsdiq edir;

klubun fəaliyyətinin yekunlarından asılı olaraq, işçilər barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür.

## 7. KLUBUN FƏALİYYƏTİNİN DAYANDIRILMASI VƏ YA LƏĞV EDİLMƏSİ

7.1. Klubun fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi klubun təsisçisinin qərarı ilə qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

7.2. Klubun fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi ilə bağlı qəbul olunmuş qərardan qanunvericiliklə müəyyən olunmuş qaydada məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Hərbi-tətbiqi və xidməti-tətbiqi idman növlərinin

## SİYAHISI

Bu Siyahı "Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 147 nömrəli Fərmanının 1.6-cı bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

Hərbi-tətbiqi və xidməti-tətbiqi idman növləri aşağıdakı cədvəldə göstərildiyi kimi müəyyən edilir:

| Sıra №-si | İdman növləri | İdman növlərinin inkişafına rəhbərlik edən mərkəzi icra hakimiyyəti orqanı (aidiyyəti üzrə) |
|---|---|---|
| | **I. Hərbi-tətbiqi idman növləri** | |

| | | |
|---|---|---|
| 1. | Ordu əlbəyaxa döyüşü | Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Sərhəd Xidməti |
| 2. | İdman çoxnövçülüyü | |
| 3. | Beşnövçülük | |
| 4. | Ştat və tabel silahından atıcılıq | |
| 5. | Uzaq məsafələrə kross qaçışları | |
| 6. | Uzaq məsafələrə silahlı-təchizat qaçışları | |
| 7. | Maneələr zolağını dəf etmə | |
| 8. | Səmti müəyyən etmə | |
| 9. | Qumbara atma | |
| 10. | Paraşüt idmanı | |
| 11. | Dəniz pentatlonu | |
| 12. | Tətbiqi üzgüçülük | |
| 13. | Dağ alpinizmi | |
| 14. | Süngüləşmə | |
| | **II. Xidməti-tətbiqi idman növləri** | Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Miqrasiya Xidməti, Dövlət Feldyeger Xidməti |
| 1. | Suda xilasetmə idmanı | |
| 2. | Xidməti motoçoxnövçülük idmanı | |
| 3. | Səmti müəyyən etmə | |
| 4. | Xilasedici — idman çoxnövçülüyü | |
| 5. | Ştat və tabel silahından atıcılıq | |
| 6. | Yanğından xilasetmə idmanı | |
| 7. | Universal döyüş | |
| 8. | Təkbətək mübarizə | |
| 9. | İkinövçülük | |
| 10. | Üçnövçülük | |
| 11. | Çoxnövçülük | |

**Qeyd.** Göstərilən mərkəzi icra hakimiyyəti orqanları bu Siyahıda nəzərdə tutulan hərbi-tətbiqi və xidməti-tətbiqi idman növlərinin seçilməsini və daxili tətbiq mexanizmini fəaliyyətlərinin xüsusiyyətlərinə müvafiq olaraq aidiyyəti üzrə müstəqil müəyyən edirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Milli yığma komandaların maddi-texniki, elmi-metodiki, tibbi-bioloji, tibbi və antidopinq təminatı

## QAYDASI

### 1. ÜMUMİ MÜDDƏA

Bu Qayda "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 147 nömrəli Fərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

### 2. MİLLİ YIĞMA KOMANDALARIN MADDİ-TEXNİKİ TƏMİNATI

2.1. Bu Qaydanın məqsədi milli yığma komandaların maddi-texniki təminatı qaydalarını müəyyənləşdirmək, onların maddi-texniki bazasının formalaşdırılması, möhkəmləndirilməsi və inkişaf etdirilməsini təmin etməkdən ibarətdir.

2.2. Milli yığma komandaların və onların üzvlərinin maddi-texniki təminatı əsasən aşağıdakı sahələri özündə cəmləşdirir:

2.2.1. təlim-məşq prosesi. Bu sahə üçün aşağıdakılar zəruridir:

beynəlxalq standartlar və normalara uyğun olan təlim-idman qurğusu;

idman növü üçün tələb olunan avadanlıq, ləvazimat, texniki vasitələr və s.;

xüsusi idman geyimləri, ayaqqabıları;

tibbi və bərpaedici mərkəz, sauna və s.;

yardımçı təlim-idman obyektləri (üzgüçülük hovuzu, trenajor zalı, ümumi-fiziki hazırlıq zalları və meydançalar);

2.2.2. qidalanma. Bu sahəyə aşağıdakılar daxildir:

hazırlıq dövrünün xüsusiyyətləri nəzərə alınmaqla, müəyyən edilmiş qidalar;

idman növlərinin xüsusiyyətlərinə görə əlavə qidalanma;

təlim-məşq toplanışlarında bütün gün ərzində qidalanma;

bərpaedici qidalanma;

2.2.3. tibbi-farmakoloji təminat. Bu sahə aşağıdakılardan ibarətdir:

idmançılara tibbi xidmətin və nəzarətin təşkili;

müəyyən edilmiş dövrlərdə tibbi müayinələrin keçirilməsi;

hər bir idmançıya fərdi olaraq vitaminlərin və dərman preparatlarının müəyyən edilməsi, alınması və idmançı tərəfindən onların qəbulunun təmin edilməsi;

bərpa dövrlərində idmançıların ehtiyaclarına uyğun müalicələrin müalicə sanatoriyalarında, müalicə-tibb müəssisələrində (klinika, xəstəxana, tibbi mərkəz və s.) həyata keçirilməsi;

milli yığma komandaların bütün üzvlərinin tibbi sığortalanması;

2.2.4. maliyyə təminatı. Bu sahəyə aşağıdakılar aiddir:

milli yığma komandalar üçün komandanın illik hazırlıq planına əsasən illik smeta xərclərinin hazırlanması və təsdiqi;

xərclər smetasına uyğun olaraq yığma komandaya maliyyə vəsaitinin ayrılması;

milli yığma komandaların inzibati işçilərinin, məşqçilər heyətinin, tibbi və texniki personalının və idmançılarının aylıq əməkhaqqı, müavinətlər, təqaüdlər və digər ödənişlərlə təmin edilməsi;

milli yığma komandalar üçün mükafat fondlarının yaradılması, mükafat meyarlarının müəyyən edilməsi.

2.3. Milli yığma komandaların və idmançıların maliyyə təminatı əsasən aşağıdakı mənbələr hesabına həyata keçirilir:

bədən tərbiyəsi və idman sahəsinə dövlət büdcəsindən ayrılan vəsait;

idman növləri üzrə respublika idman federasiyaları;

Milli Olimpiya Komitəsi;

idman təşkilatları;

sponsor təşkilatlar;

hamilik edən hüquqi və fiziki şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan fəaliyyətlərindən (reklam, kommersiya tipli yarışlarda iştirak və s.) əldə edilmiş vəsaitlər.

2.4. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi (bundan sonra — Nazirlik) milli yığma komandaların maddi-texniki təminatı ilə bağlı, idman obyektlərinin tikintisinin təşkili, fəaliyyət göstərən idman obyektlərinin bərpası və işlək vəziyyətdə saxlanılması barədə təkliflərini hazırlayır və müvafiq orqanlara təqdim edir.

## 3. MİLLİ YIĞMA KOMANDALARIN ELMİ-METODİKİ TƏMİNATI

3.1. Azərbaycan Respublikasının milli yığma komandalarının elmi-metodiki təminatının əsas məqsədi müasir elmi nailiyyətlər və qabaqcıl təcrübə əsasında yüksəkdərəcəli idmançıların hazırlıq sisteminin yaradılmasıdır.

3.2. Milli yığma komandaların və yüksəkdərəcəli idmançıların hazırlıq sisteminin elmi təminatının metodoloji əsasları aşağıdakılardan ibarətdir:

yüksəkdərəcəli idmançıların hazırlıq sisteminin elmi-metodiki əsasının hazırlanması;

çoxillik hazırlıq prosesində milli yığma komandalara namizədlərin seçilməsi və inkişaf dinamikası proqnozunun ölçü vahidlərinin elmi əsaslandırılması;

məşq prosesinin idarə olunmasının elmi əsaslandırılması;

olimpiya idman növləri üzrə yüksəkdərəcəli idmançıların hazırlıq sisteminin təkmilləşdirilməsi.

3.3. Yüksəkdərəcəli idmançıların hazırlıq sisteminin ümumi nəzəri və metodoloji əsasları aşağıdakılardan ibarətdir:

müasir idman nəzəriyyəsinin ümumi quruluşu və məzmununun hazırlanması;

elmi kompleks qrupların (EKQ) yaradılması, respublika idman federasiyaları ilə əlaqələrin təşkili, milli yığma komandaların beynəlxalq yarışlara hazırlığının elmi əsaslarla aparılması üzrə birgə fəaliyyətin təmin edilməsi.

3.4. Çoxillik hazırlıq prosesində milli yığma komandalara namizədlərin seçilməsi və inkişaf dinamikası proqnozunun ölçü vahidlərinin elmi əsasları aşağıdakılardır:

hazırlığın müxtəlif mərhələlərində idman istedadlarının müəyyən edilməsi və seçilməsi metodlarının sistemləşdirilməsi;

idmançıların yaş xüsusiyyətlərini nəzərə almaqla, milli komandalara seçmənin təşkilati — metodiki əsaslarının hazırlanması;

seçmədə irsi əlamətlərin rolunun təyin edilməsi;

perspektivli idmançıların seçimi və bu seçimi aparmağın ölçü vahidlərinin elmi əsaslandırılması;

idman nailiyyətlərinin proqnozlaşdırılmasının elmi-metodiki əsasları.

3.5. Məşq prosesinin idarə olunmasının elmi əsasları aşağıdakılardan ibarətdir:

yüksəkdərəcəli idmançıların məşq prosesinin fərdiləşdirilməsinin əsaslandırılması və metodologiyasının hazırlanması;

milli komandaların məşq prosesinin bütün mərhələlərinin məzmunu, quruluşu, metod və vasitələri, planlaşdırılmasının elmi əsasları;

gərgin təlim-məşq və yarış şəraitində yığma komanda üzvlərinin xüsusi hazırlığına kompleks nəzarət, alınan nəticələrin təhlili, düzəlişlərin edilməsi, idman hazırlığının inkişafı və təkmilləşdirilməsi;

milli komandaların üzvlərinin yarış fəaliyyətinin modelləşdirilməsi;

yüksəkdərəcəli idmançıların işgörmə qabiliyyətinin bərpası və onun imkanlarının artırılmasının metod və vasitələrinin elmi əsasları;

idmançıların iradi-mənəvi hazırlığının təkmilləşdirilməsi.

3.6. Olimpiya idman növləri üzrə yüksəkdərəcəli idmançıların hazırlıq sisteminə aşağıdakılar daxildir:

silsiləvi idman növlərində milli yığma komanda üzvlərinin hazırlıq sistemi;

sürət-qüvvə tələb edən idman növlərində milli yığma komanda üzvlərinin hazırlıq sistemi;

təkmübarizəlik idman növlərində milli yığma komanda üzvlərinin hazırlıq sistemi;

mürəkkəb koordinasiyası olan idman növlərində milli yığma komanda üzvlərinin hazırlıq sistemi;

idman oyunlarında milli yığma komanda üzvlərinin hazırlıq sistemi;

Olimpiya Oyunlarına dördillik hazırlıq mərhələsində milli yığma komanda üzvlərinin hazırlığına kompleks elmi nəzarət.

3.7. Milli yığma komandaların beynəlxalq yarışlara hazırlığı və beynəlxalq yarışlarda iştirakı elmi-kompleks qrupları tərəfindən işlənmiş və Nazirlik tərəfindən təsdiq edilmiş hazırlıq proqramları və planları əsasında həyata keçirilir.

3.8. Bədən tərbiyəsi və idman sahəsində elmi tədqiqat işlərinin aparılması öz fəaliyyətlərini dövlət və digər sifarişlər əsasında həyata keçirən bədən tərbiyəsi və idman sahəsində yaradılmış elmi mərkəzlər, elmi tədqiqat institutları, laboratoriyalar, eləcə də təhsil müəssisələri tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir.

## 4. MİLLİ YIĞMA KOMANDALARIN TİBBİ-BİOLOJİ, TİBBİ VƏ ANTİDOPİNQ TƏMİNATI

4.1. Milli yığma komandaların üzvlərinin tibbi-bioloji təminatı hər il yeniləşən Ümumdünya Antidopinq Agentliyi (bundan sonra —ÜADA) tərəfindən tərtib olunan siyahı nəzərə alınmaqla, il ərzində Nazirlik tərəfindən həyata keçirilir.

4.2. İdmançıların sağlamlığının aşkar edilmiş xüsusiyyətləri və funksional vəziyyəti nəzərə alınmaqla, orqanizmin qəbul etdiyi yüklərə adaptasiya göstəriciləri üzrə əsaslandırılmış fərdi bərpaedici-reabilitasiya üçün onlara mütəxəssis tərəfindən dərman maddələri təyin olunur.

4.3. Milli yığma komanda üzvlərinin yarışqabağı farmakoloji təminatına aşağıdakılar daxildir:

milli yığma komandaların üzvlərinin yarışqabağı adaptasiyası;

idmanda dopinq problemləri və buna nəzarət;

adoptogen bioloji fəal maddələrin idmanda istifadə olunması və farmakoloji təminat;

idmançının göstəricilərinə təsir edən müxtəlif tibbi preparatlardan və qidaya əlavələrdən istifadə.

4.4. Milli yığma komandaların üzvlərinin tibbi təminatı idmançıların əsaslı tibbi müayinəsini (idmançıların fiziki inkişafı, sağlamlığı və funksional vəziyyəti haqqında məlumat) və müalicəsini özündə əks etdirir.

4.5. Əsaslı tibbi müayinənin məqsədi aşağıdakılardır:

milli yığma komandaların idmançılarının funksional imkanlarının səviyyəsinin müəyyən edilməsi;

idmançıların təlim — məşq prosesinə qatılmalarına maneçilik törədən xəstəliklərin və patoloji halların müəyyən edilməsi;

patoloji hallara səbəb olan riskli amillərin müəyyən edilməsi;

idman ustalığı səviyyəsindən asılı olaraq, hazırlıq dövrü prosesində idmançının fiziki inkişaf səviyyəsinin dəyişilməsinin diaqnostikası;

idmançının orqanizminin sağlamlığı haqqında məlumatın təhlili və buna uyğun olaraq, onun fərdi hazırlıq planlarında müvafiq düzəlişlərin (əlavə və dəyişikliklərin) aparılması.

Əsaslı tibbi müayinənin nəticələri idmançıların tibbi sənədlərində qeyd olunur.

4.6. Milli yığma komandaların beynəlxalq yarışlara hazırlığı və beynəlxalq yarışlarda iştirakı zamanı elmi-metodiki və tibbi təminatı Nazirlik və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Milli Olimpiya, Paralimpiya, Deflimpiya, Xüsusi Olimpiya komitələri və respublika idman federasiyaları tərəfindən həyata keçirilir.

4.7. Azərbaycan Respublikasında qadağan edilmiş dopinq vasitələrindən və metodlarından istifadəyə qarşı yönəldilmiş vahid siyasət "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Nazirlik tərəfindən həyata keçirilir.

4.8. Milli yığma komandaların antidopinq təminatı aşağıdakıları özündə əks etdirir:

milli yığma komandaların idmançıları, məşqçiləri və tibbi personalları üçün xüsusi antidopinq maarifləndirmə proqramları üzrə (Ümumdünya Antidopinq Agentliyi tərəfindən qadağan olunmuş dərman maddələrinin siyahısının izahı, idmançıların, həkimlərin və məşqçilərin məsuliyyətlərinin izahı, dopinq nəzarətinin klassik reqlamenti ilə tanışlıq) seminar-məşğələlərin mütəmadi olaraq təşkili və keçirilməsi;

respublika və beynəlxalq miqyaslı yarışlarda, habelə yarışdankənar vaxtlarda dopinq nəzarətinin keçirilməsi;

terapevtik istifadə ilə bağlı sorğuların vaxtında antidopinq təşkilatlarına, ÜADA-ya göndərilməsi, bu məsələlərlə bağlı mübahisəli və mürəkkəb vəziyyətlər yarandığı zaman tibbi ekspertlərin rəyinin öyrənilməsi, terapevtik istifadə məsələləri üzrə idman federasiyaları ilə qarşılıqlı fəaliyyəti tənzimləmək üçün xüsusi komissiyaların yaradılması;

antidopinq laboratoriyalarından idmançıların bioloji nümunələrinin yoxlamalarının nəticələrinin əldə edilməsi, analizin xoşagəlməz nəticələri aşkar edildiyi təqdirdə, idman federasiyalarının (assosiasiyalarının) bu barədə məlumatlandırılması;

dopinqin müəyyən edilməsi məqsədi ilə keçirilən "A" nümunəsinin analizi xoşagəlməz nəticə verdiyi təqdirdə, idmançıya onun hüquqlarının bildirilməsi;

dopinq nümunəsinin götürülməsi üçün mütəxəssis heyətinin təlimi və attestasiyasının keçirilməsinin təşkil edilməsi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Ölkə ərazisində yayılan idman növlərinin və idman fənlərinin tanınması QAYDALARI**

## 1. ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 147 nömrəli Fərmanının 1.8-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

İdman növünün (fənninin) əsas məqsədi hər bir şəxsin sağlamlığının möhkəmləndirilməsinə, qorunmasına və fiziki inkişafına xidmət etməkdən ibarətdir.

## 2. ÖLKƏ ƏRAZİSİNDƏ YAYILAN İDMAN NÖVÜNƏ (FƏNNİNƏ) DAİR TƏLƏBLƏR

Ölkə ərazisində yayılan idman növünə (fənninə) dair tələblər aşağıdakılardır:

idman növü (milli idman növləri istisna olmaqla) beynəlxalq idman qurumlarında tanınmış və qəbul edilmiş idman növlərindən biri olmalıdır;

milli idman növü müəyyən ərazilərdə yaşayan sakinlər arasında tarixi ənənəyə, kütləvi marağa və onların asudə vaxtlarında daha çox məşğulluqlarına xidmət edən idman növlərindən biri olmalıdır;

idman növünün qaydalarında insanın sağlamlığına ağır zədə vuran və ölümlə nəticələnə bilən fəndlərə, rəqibə qarşı hörmətsizlik və qəddarlığa, insan ləyaqətini və şəxsiyyətini alçaldan, eləcə də tamaşaçılara qarşı qeyri-etik münasibətlərlə fərqlənən hallara hər hansı bir formada icazə verilməsi qəbulolunmazdır;

idman növü (fənni) üzrə yarışların keçirilməsi qaydaları olmalıdır;

idman növünün (fənninin) inkişafı üçün tələb olunan maddi-texniki baza olmalıdır;

idman növü (fənni) üzrə mütəxəssislərin sayı və yenilərinin hazırlanması üzrə proqram olmalıdır.

## 3. ÖLKƏ ƏRAZİSİNDƏ YAYILAN İDMAN NÖVÜNÜN (FƏNNİNİN) TANINMASI İLƏ BAĞLI TƏQDİM EDİLƏN SƏNƏDLƏR

Ölkə ərazisində yayılan idman növünün (fənninin) tanınması haqqında rəsmi müraciət aşağıda göstərilən sənədlərlə birlikdə müvafiq idman növləri üzrə respublika idman federasiyaları (assosiasiyaları), bədən tərbiyəsi və idman təşkilatları, icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə (bundan sonra — Nazirlik) təqdim edilir:

idman növünün (fənninin) dəqiq adı göstərilən rəsmi sənəd;

müraciət edən təşkilatın təsis sənədlərinin, hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin, respublika idman federasiyasının (assosiasiyasının) dövlət akkreditasiyası barədə qərarının müvafiq qaydada təsdiq edilmiş surətləri;

idman növü (fənni) üzrə yarışların keçirilməsi qaydaları;

idman növünün (fənninin) perspektiv inkişaf proqramı;

idman növünün (fənninin) təlimi üzrə metodiki təlimatlar və tövsiyələr.

## 4. XÜSUSİ QEYDLƏR

4.1. Ölkə ərazisində yayılan idman növünün (fənninin) tanınması haqqında təqdim olunmuş rəsmi müraciətə Nazirlikdə yaradılmış xüsusi komissiyada 2 (iki) həftə ərzində baxılır. Komissiyanın rəyi müsbət olduğu halda, məsələ Nazirliyin kollegiyasının müzakirəsinə təqdim edilir. İdman növünün (fənninin) tanınması haqqında qərar Nazirlik tərəfindən qəbul edilir və 2 (iki) həftə ərzində bu barədə müraciət edənə rəsmi olaraq yazılı formada məlumat göndərilir.

4.2. Xüsusi komissiya ölkə ərazisində yayılan idman növünün (fənninin) tanınması ilə bağlı qeyri-müsbət qərar qəbul edərsə, bu barədə 2 (iki) həftə ərzində müraciət edənə idman növünün (fənninin) tanınmaması səbəbləri haqqında rəsmi yazılı məlumat verilməlidir. Müraciət edən həmin səbəbləri aradan qaldırmaqla, 6 (altı) aydan sonra ölkə ərazisində yayılan idman növünün (fənninin) tanınması ilə bağlı yenidən müraciət edə bilər.

4.3. Nazirlik rəsmi qaydada tanınmış idman növü (fənni) haqqında kütləvi informasiya vasitələrində və özünün xüsusi bülletenində məlumat dərc etdirir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

# Respublika idman federasiyalarının dövlət reyestrinin aparılması QAYDALARI

## 1. ÜMUMİ MÜDDƏA

Bu Qaydalar "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 147 nömrəli Fərmanının 1.9-cu bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

## 2. RESPUBLİKA İDMAN FEDERASİYALARININ (ASSOSİASİYALARININ) DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLMƏSİ QAYDALARI VƏ TƏLƏBLƏRİ

2.1. Respublika idman federasiyalarının dövlət reyestri (bundan sonra — RİFDR) Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi (bundan sonra — Nazirlik) tərəfindən aparılır.

2.2. İctimai birlik dövlət akkreditasiyasından keçdikdən sonra respublika idman federasiyası statusunu alır və respublika idman federasiyalarının dövlət reyestrinə daxil edilir.[3]

2.3. RİFDR aşağıdakılardan ibarətdir:

qeydiyyatın sıra nömrəsi;

respublika idman federasiyasının (assosiasiyasının) adı və kod nömrəsi;

idman növünün (fənninin) adı və kod nömrəsi (bunlar idman növlərinin dövlət reyestrinə uyğun olmalıdır);

akkreditasiya barədə qərarın tarixi və nömrəsi;

beynəlxalq və digər idman qurumlarına üzvlük haqqında məlumat;

fəaliyyəti dayandırılmış, ləğv edilmiş və ya yenidən təşkil olunmuş respublika idman federasiyaları (assosiasiyaları) haqqında məlumatlar.

~~2.4. RİFDR-ə daxil olma haqqında Nazirliyə təqdim edilmiş sənədlər bu Qaydaların tələblərinə uyğun gəlmədiyi halda, məsələyə baxılmır və həmin sənədlər 2 (iki) həftə ərzində müraciət edənə qaytarılır.~~

~~2.5. Nazirlik təqdim olunmuş sənədlərdəki məlumatların həqiqətə uyğun olmadığı, qeyri-dəqiq və səhv olduğu hallarda, müvafiq respublika idman federasiyasının (assosiasiyasının) RİFDR-ə daxil edilməməsi haqqında qərar qəbul edir və bu barədə 10 (on) gün ərzində həmin təşkilatı rəsmi qaydada məlumatlandırır.~~

2.4. Nazirlik təqdim edilmiş sənədlər əsasında respublika idman federasiyasının (assosiasiyasının) RİFDR-ə daxil edilməsi haqqında qərarın surətini və reyestr qeydiyyatı haqqında şəhadətnaməni 1 (bir) ay ərzində müvafiq respublika idman federasiyasına (assosiasiyasına) təqdim edir.[4]

## 3. RİFDR-DƏ DƏYİŞİKLİK EDİLMƏSİ

3.1. RİFDR-də dəyişikliklər edilməsi Nazirlik tərəfindən aşağıdakı hallarda həyata keçirilir:

təqdim edilmiş sənəd və məlumatlara əlavələr və dəyişikliklər edildikdə;

hər hansı bir respublika idman federasiyasının (assosiasiyasının) fəaliyyəti dayandırıldıqda və ya ləğv edildikdə.

3.2. RİFDR-də dəyişikliklər respublika idman federasiyasının (assosiasiyasının) rəsmi müraciəti əsasında Nazirlik tərəfindən qəbul edilmiş qərarla edilir.

3.3. Respublika idman federasiyası (assosiasiyası) təklif etdiyi dəyişiklikləri təsdiqləyən sənədləri öz müraciətinə əlavə etməlidir. Əks halda, həmçinin, təqdim olunmuş sənədlər həqiqətə uyğun olmadıqda, qeyri-dəqiq və səhv tərtib olunduqda, Nazirlik dəyişikliklər haqqında qaldırılmış məsələyə baxmır və bu barədə müraciət edəni 10 (on) gün ərzində rəsmi məlumatlandırır.

3.4. Təqdim olunmuş sənədlər əsasında RİFDR-də dəyişikliklər aparılması və yaxud aparılmaması haqqında Nazirlik tərəfindən qəbul edilmiş qərar müəyyən edilmiş qaydalara uyğun olaraq 10 (on) gün ərzində müraciət edənə göndərilir.

## 4. RİFDR-İN AŞKARLIĞI

Respublika idman federasiyaları (assosiasiyaları) haqqında RİFDR-də toplanmış məlumatlar istənilən maraqlı şəxsin sorğusu əsasında Nazirlik tərəfindən verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

# İdman növlərinin dövlət reyestrinin aparılması QAYDALARI

## 1. ÜMUMİ MÜDDƏALAR

1. Bu Qaydalar "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 147 nömrəli Fərmanının 1.10-cu bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

2. Bu Qaydaların məqsəd və vəzifələri ölkə ərazisində inkişaf etdirilən idman növləri və fənlərinin, həmçinin, inkişafı planlaşdırılan yeni idman növləri və fənlərinin idman növlərinin dövlət reyestrinə (bundan sonra — İNDR) daxil edilmə qaydalarını müəyyənləşdirmək, bu idman növlərinin sistemli inkişafını təmin etmək, idman növlərinin inkişaf səviyyəsi və əhatə dairəsi haqqında statistik hesabatların təkmilləşdirilməsinə və real vəziyyəti əks etdirə bilməsinə nail olmaqdır.

## 2. İNDR-İN APARILMASI QAYDALARI

2.1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş bədən tərbiyəsi və idman sahəsinə aid statistik hesabatda qeydiyyata alınmış idman növləri ölkə ərazisində rəsmi olaraq tanınmış idman növləri kimi İNDR-ə daxil edilir.

~~2.2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi (bundan sonra Nazirlik) tərəfindən tanınmış idman növlərinin (fənlərinin) İNDR-ə daxil edilməsi müvafiq idman növləri üzrə respublika idman federasiyaları (assosiasiyaları), bədən tərbiyəsi və idman təşkilatları, icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının rəsmi müraciətləri əsasında Nazirlik tərəfindən həyata keçirilir.~~

~~2.3. İNDR-ə daxil edilməsi üçün aşağıdakı sənədlər tələb olunur:~~

~~idman növünün (fənninin) İNDR-ə daxil edilməsi haqqında rəsmi müraciət;~~

~~idman növünün (fənninin) tanınması haqqında Nazirliyin qərarının təsdiq edilmiş surəti.~~ [5]

2.2. Ölkə ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış idman növü (fənni) İNDR-ə Nazirliyin qərarı əsasında daxil edilir.[6]

## 3. XÜSUSİ QEYDLƏR

3.1. Müvafiq idman növü üzrə ictimai birliyə respublika idman federasiyası statusunun verilməsi üçün onun dövlət akkreditasiyası məsələsinə yalnız həmin idman növünün İNDR-ə daxil edilməsindən sonra baxıla bilər.

3.2. Hər ilin yekunlarına görə Nazirlik İNDR-ə daxil edilmiş bütün idman növlərinin (fənlərinin) siyahısını öz bülletenində və rəsmi sənədlər toplusunda nəşr etdirir.

3.3. Tanınmış idman növü (fənni) ölkə ərazisində yayılan idman növünə (fənninə) dair tələblərə gələcəkdə cavab vermədikdə İNDR-dən çıxarılır.

3.4. İNDR-də aparılan dəyişikliklər Nazirliyin qərarı ilə həyata keçirilir.

3.5. İNDR-ə daxil edilmiş idman növlərinə müəyyən edilmiş kod — nömrələr verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində idman adları, idman dərəcələri, məşqçilərin təsnifat kateqoriyaları və idman hakimlərinin təsnifat dərəcələri**
**Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində idman adları, idman dərəcələri, məşqçilərin təsnifat kateqoriyaları və idman hakimlərinin təsnifat dərəcələri**
**«Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 147 nömrəli Fərmanının 1.11-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.**

## 1. İDMAN ADLARI

Azərbaycan Respublikasında idman adları aşağıdakılardır:
Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi
Azərbaycan Respublikasının Əməkdar Məşqçisi
Azərbaycan Respublikasının Əməkdar İdman Ustası
Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi

İlk ad Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin (bundan sonra — Nazirlik) təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən, sonrakı üç ad isə respublika miqyaslı bədən tərbiyəsi və idman təşkilatlarının, idman növləri üzrə respublika federasiyalarının təqdimatları əsasında Nazirliyin kollegiyasının qərarı ilə verilir.[7]

## 2. İDMAN DƏRƏCƏLƏRİ

Azərbaycan Respublikasının idmançılarına aşağıdakı dərəcələr verilir:
Beynəlxalq İdman Ustası
Beynəlxalq Qrossmeyster
Qrossmeyster
İdman Ustası
İdman Ustalığına namizəd
I idman dərəcəsi
II idman dərəcəsi
III idman dərəcəsi
IV idman dərəcəsi

Beynəlxalq İdman Ustası, Beynəlxalq Qrossmeyster, Qrossmeyster idman dərəcələri idmançıların beynəlxalq yarışlarda iştirakının nəticələrinə əsasən idman növləri üzrə beynəlxalq idman federasiyaları tərəfindən verilir.

Respublika idman dərəcələri hər olimpiya dövrü üçün 4 (dörd) illik müddətə müvafiq idman növləri üzrə respublika idman federasiyalarının (assosiasiyalarının) təklifləri əsasında Nazirlik tərəfindən hazırlanmış və təsdiq edilmiş respublika Vahid idman təsnifatının tələb və şərtləri əsasında verilir.

İdman Ustası və İdman Ustalığına namizəd dərəcələri — Nazirlik; I idman dərəcəsi — şəhər (rayon) gənclər və idman baş idarələri (idarələri), respublika miqyaslı bədən tərbiyəsi və idman təşkilatları; II, III və IV idman dərəcələri isə bədən tərbiyəsi və idman təşkilatları, idman klubları və

idman məktəbləri tərəfindən müvafiq təqdimatlar əsasında respublika Vahid idman təsnifatına uyğun olaraq verilir.

İdman ustalığına namizəd dərəcəsi, həmçinin, Naxçıvan MR-ın Gənclər və İdman Nazirliyi və Bakı şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən verilir.

Beynəlxalq İdman Ustası, Beynəlxalq Qrossmeyster, Qrossmeyster, İdman Ustası dərəcələri daimi, digər dərəcələr isə verildiyi vaxtdan etibarən 2 (iki) il müddətində etibarlı sayılır.

## 3. MƏŞQÇİLƏRİN TƏSNİFAT KATEQORİYALARI

Məşqçilərin təsnifat kateqoriyaları aşağıdakı kimi müəyyənləşdirilmişdir:

Ali kateqoriya

I kateqoriya

II kateqoriya.

Məşqçilərin təsnifat kateqoriyaları Nazirlik tərəfindən respublika Vahid idman təsnifatı ilə müəyyən edilmiş normalar, tələblər və şərtlər əsasında verilir.

## 4. İDMAN HAKİMLƏRİNİN TƏSNİFAT DƏRƏCƏLƏRİ

Azərbaycan Respublikasının idman hakimlərinin təsnifat dərəcələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

Beynəlxalq dərəcəli hakim

Respublika dərəcəli hakim

I dərəcəli hakim

İdman hakimi.

"Beynəlxalq dərəcəli hakim" dərəcəsi hakimlərin beynəlxalq yarışlarda iştirakının nəticələrinə əsasən müvafiq idman növləri üzrə beynəlxalq federasiyalar tərəfindən verilir.

"Respublika dərəcəli hakim" dərəcəsi müvafiq idman növləri üzrə respublika idman federasiyalarının təqdimatı əsasında Nazirliyin kollegiyasının qərarı ilə verilir.

"1-ci dərəcəli hakim" dərəcəsi müvafiq təqdimatlar əsasında Naxçıvan MR-in Gənclər və İdman Nazirliyi, şəhər (rayon) gənclər və idman baş idarələri (idarələri), respublika miqyaslı bədən tərbiyəsi və idman təşkilatları və müvafiq idman növləri üzrə respublika idman federasiyaları tərəfindən verilir.

"İdman hakimi" dərəcəsi bədən tərbiyəsi və idman təşkilatları, idman klubları və idman məktəbləri tərəfindən verilir.

İdman hakimlərinin təsnifat dərəcələri respublika Vahid idman təsnifatının müvafiq dövr üçün müəyyən edilmiş normaları, tələbləri və şərtləri əsasında verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Dövlət bədən tərbiyəsi — idman təşkilatlarında bədən tərbiyəsi və idman xidmətləri güzəştli şərtlərlə göstərilən bəzi kateqoriyadan olan şəxslərin**

**S İ Y A H I S I**

Bu Siyahı "Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 147 nömrəli Fərmanının 1.14-cü bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

Dövlət bədən tərbiyəsi — idman təşkilatlarında bədən tərbiyəsi və idman xidmətləri güzəştli şərtlərlə göstərilən bəzi kateqoriyadan olan şəxslərin siyahısı aşağıda göstərildiyi kimi müəyyən edilir:

şəhid ailələrindən olan uşaqlar;

müharibə və Çernobıl əlilləri;

bədən tərbiyəsi və idman sahəsində yüksək dövlət təltiflərinə və fəxri adlara malik olan şəxslər;

Olimpiya Oyunlarının, Dünya və Avropa yarışlarının mükafatçıları;

«Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun 58.4-cü maddəsində nəzərdə tutulmuş şəxslər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 24 dekabr tarixli, 198 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Dövlət bədən tərbiyəsi** — idman təşkilatlarında göstərilən bədən tərbiyəsi və idman xidmətlərinə güzəştlərin siyahısı və onların həcmi

**Dövlət bədən tərbiyəsi** — idman təşkilatlarında göstərilən bədən tərbiyəsi və idman xidmətlərinə güzəştlərin siyahısı və onların həcmi «Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 147 nömrəli Fərmanının 1.15-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

**Dövlət bədən tərbiyəsi** — idman təşkilatlarında göstərilən bədən tərbiyəsi və idman xidmətlərinə güzəştlər və onların həcmi aşağıda göstərildiyi kimi müəyyən edilir:

| Sıra №-si | Bədən tərbiyəsi və idman xidmətlərinə güzəştlər | Güzəştin həcmi |
|---|---|---|
| 1. | İdman obyektləri, qurğuları və avadanlıqlarından istifadə etmək | həftədə 2 (iki) dəfə, 1 (bir) saatdan çox olmamaq şərti ilə — aylıq tariflərin 50%-i |
| 2. | Fərdi məşğələlərin keçirilməsi zamanı ilkin xidmətlərdən, təlimatçıların və məşqçilərin məsləhətlərindən istifadə etmək | təşkilatın hesabına |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 12 aprel 2010-cu il tarixli **60** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 354**)
2. 26 sentyabr 2014-cü il tarixli **313** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 28 sentyabr 2014-cü il, № 212; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1137)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 26 sentyabr 2014-cü il tarixli **313** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 28 sentyabr 2014-cü il, № 212; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1137)** ilə "İctimai birliklərə respublika idman federasiyası statusunun verilməsi üçün onların dövlət akkreditasiyası Qaydası"nın 1-ci hissəsində "**respublika**" sözü "**ölkə**" sözü ilə əvəz edilmişdir.

[2] 12 aprel 2010-cu il tarixli **60** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 354**) ilə "İctimai birliklərə respublika idman federasiyası statusunun verilməsi üçün onların dövlət akkreditasiyası Qaydası"nın 3.1-ci bəndinə on birinci və on ikinci abzaslar əlavə edilmişdir.

[3] 12 aprel 2010-cu il tarixli **60** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 354**) ilə "Respublika idman federasiyalarının dövlət reyestrinin aparılması Qaydaları"nın 2.2-ci bəndi aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.2. RİFDR-ə daxil edilməsi üçün Nazirlik tərəfindən respublika idman federasiyalarından (assosiasiyalarından) aşağıdakı sənədlər tələb olunur:~~

~~akkreditasiya barədə qərarın təsdiq edilmiş surəti;~~

~~hüquqi adı və ünvanı;~~

~~təşkilati strukturu;~~

~~beynəlxalq və digər idman qurumlarına üzvlüyü haqqında məlumat;~~

~~rəhbərliyi və rəhbər orqanlarının tərkibi haqqında məlumat.~~

[4] 12 aprel 2010-cu il tarixli **60** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 354**) ilə "Respublika idman federasiyalarının dövlət reyestrinin aparılması Qaydaları"nın 2.4-cü və 2.5-ci bəndləri çıxarılmışdır və 2.6-cı bəndi 2.4-cü bənd hesab edilmişdir.

[5] 12 aprel 2010-cu il tarixli **60** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 354**) ilə "İdman növlərinin

dövlət reyestrinin aparılması Qaydaları"nın 2.2-ci və 2.3-cü bəndləri çıxarılmışdır və 2.4-cü bəndi 2.2-ci bənd hesab edilmişdir.

[6] 12 aprel 2010-cu il tarixli **60** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 354**) ilə "İdman növlərinin dövlət reyestrinin aparılması Qaydaları"nın 2.4-cü bəndində "**İdman növü**" sözləri "**Ölkə ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış idman növü**" sözləri ilə əvəz edilmişdir.

[7] 12 aprel 2010-cu il tarixli **60** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 4, maddə 354**) ilə "Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində idman adları, idman dərəcələri, məşqçilərin təsnifat kateqoriyaları və idman hakimlərinin təsnifat dərəcələri"nin 1-ci bəndinin altıncı abzasında "**İlk iki ad**" sözləri "**İlk ad**" sözləri ilə, "**sonrakı iki ad**" sözləri isə "**sonrakı üç ad**" sözləri ilə əvəz edilmişdir.